TURK ELI

International Scientific Journal



Volume 1 | Special Issue Part 1 | 2026

Manas, Kyrgyz Republic

www.turkeli.science

TURK ELI
INTERNATIONAL SCIENTIFIC JOURNAL

The journal is officially registered as a mass media outlet by the Justice Department of Manas Region under the Ministry of Justice of the Kyrgyz Republic in accordance with Registration Certificate No. 10339 dated March 11, 2024. The journal is registered under the title “TURK ELI” International Scientific Journal and is authorized for publication in Kyrgyz, Turkish, Uzbek, Kazakh and English languages.

Honorary President
Sarvar Ispahi

Editor-in-Chief
Jenishbek Duysheev

Deputy Editor in-Chief
Rahmonali Hasanov

Editorial Board:

Ablat Khodjaev (Prof. Dr.)
Shakimashrip Ibraev (Prof. Dr.)
Shohistahon Uljaeva (Prof. Dr.)
Kubanychbek Kalchakeev (Prof. Dr.)
Abdimajid Madraimov (Prof. Dr.)
Shukhrat Sattorov (Prof. Dr.)
Ibrahim Kush (Dr.)
Faig Elekberli (Dr.)
Erdenebayar Nasanbat (Dr.)
Gulnara Anarbaeva (Dr.)
Nurgul Aldabek (Dr.)
Nurjamal Myrzabaeva (Dr.)
Takhirjan Kazakov (Dr.)
Elmira Hazratkulova (Dr.)
Azamat Kaliev (Dr.)
Abdulvakhidkhon Nuriddinov (Dr.)

About this Special Issue

This Special Issue presents selected papers from the International Scientific Conference
Ijtimoiy fanlar va jamiyat taraqqiyoti:
barqaror rivojlanishning strategik yo‘nalishlari

Technical Editor
Laziz Baxtiyorov

Publisher: turkeli.science
E-mail: editor@turkeli.science


TOSHKENT IQTISODIYOT VA TEXNOLOGIYALARI UNIVERSITETI
TITU
TOSHKENT – 2022
TOSHKENT IQTISODIYOT VA TEXNOLOGIYALAR UNIVERSITETI
IJTIMOIY FANLAR FAKULTETI
IJTIMOIY FANLAR VA JAMIYAT TARAQQIYOTI:
BARQAROR RIVOJLANISHNING
STRATEGIK YO‘NALISHLARI
GLOBAL MIQYOS
STRATEGIYA VA TARAQQIYOT
ILM-FAN VA INNOVATSIYA
JAMIYAT VA INSON KAPITALI
XALQARO ILMIY-AMALIY KONFERENSIYA
ILM-FAN ORQALI BARQAROR KELAJAK SARI
2026-yil 15-may

Contents

A. A. Djumanqulov *A. A. Beknazarov*	Psychological and Methodological Principles of Effective Lesson Time Management by Teachers	6
B. A. Khasanova *R. Abdullaev*	Digital Transformation in Central Asia: An Assessment Based on the Case of the Kyrgyz Republic	8
Yu. Akhmedov	The Strategic Importance of Crisis Communication in Ensuring National Stability in Polyethnic Societies	13
O. F. Egamberdiev	The Role, Determinants, and Effectiveness of Marketing Strategies in the Sustainable Development of the Transport System: Evidence from the Khorezm Region	17
R. Sh. Ibrahimova	Development History of Parasitology in Azerbaijan	20
B. O. Turaev	Ali Qushchi: The Scholar Who Introduced the Achievements of Ulugh Beg's Academy to the World	22
H. Hamidov	The History of Artists during the Reign of Amir Temur and the Timurid Period	26
S. Dj. Saidova	National Costume as a Historical and Spiritual Phenomenon	30
K. M. Yuldoshev	Innovation in Education	33
A. S. Kaliev *N. B. Bazarbaev*	Political Development and the Transformation of Civil Identity in Uzbekistan: The 690th Anniversary of Amir Temur and the Politics of	36
K. M. Yuldoshev *Z. Murodova*	Rabat-i Malik Caravanserai: A Key Waystation on the Great Silk Road	39
D. S. Saparboeva	Features of the Development of Logical Thinking in Primary School Mathematics Lessons	42
Sh. O. Sayfullaeva	Developing Reading Skills through Authentic Texts in Teaching Russian as a Foreign Language	44
N. Kh. Kholyigitova	The Role of Personal Values–Oriented Career Planning in Higher Education for Societal Development	46
M. N. Inatov	The Application of Sociological and Historical Analysis Methods in Letter Analysis	48
M. G. Nazarova	Socio-Psychological and Educational Strategic Directions for Preparing Future Engineers for Professional Activity in the Context of Societal Development	51
I. H. Jabrayilov	Common Turkish History: Research and Teaching Issues	54
O. V. Kon	Preparing the Next Generation of Social Educators in Higher Education: A Competency Model in the Context of Global Societal Challenges	56
D. A. Egamberdieva	The Semantic Characteristics of Nature Symbols in Uzbek and English Fairy Tales	60
Q. H. Inoyatov	The Scientific Legacy of Our Great Ancestors as a Source of Education and Moral Values	64
A. J. Toshboboev	The Integration of Social Sciences and the Education System for Sustainable Societal Development: An Analysis of Historical and Contemporary Approaches	66
G. B. Ernazarov	The Role of the Service Sector in the National Economy: Significance, Economic Analysis, and Strategies for Improvement	69
Ə. M. Zeynalov	Azerbaijan in French Literature	72
K. M. Gulomova	The Role of Modern Pedagogical Technologies in Enhancing Teachers' Professional Competence	76
S. Ibrohimov	Culture and Historical Heritage as Economic Resources: Innovative Management and Strategies for Sustainable Growth	79
J. O. Kucharov	Enhancing Workforce Potential in Small Business Enterprises in Uzbekistan	82

Azerbaijan in French Literature

Əsgər Məmməd oğlu Zeynalov (Doctor of Sciences (DSc) in Philology, Professor)[1]

[1.] Azerbaijan University of Languages
Baku, Azerbaijan

Abstract.
This article examines the representation of Azerbaijan in French literature through the works of prominent Orientalists and writers, including Barthélemy d'Herbelot, Voltaire, Alexandre Dumas, Joseph Arthur de Gobineau, and Baron de Baye. It analyzes their interpretations of Azerbaijan's history, cultural heritage, literary traditions, and social life while evaluating the historical reliability of their observations. The study highlights the significant contribution of French literary and travel narratives to the international recognition of Azerbaijan and demonstrates how these works shaped European perceptions of the country. At the same time, it identifies factual inaccuracies and emphasizes the need for critical analysis when using literary sources in historical research. The article concludes that French literary materials constitute an important source for studying Azerbaijan's cultural image and provide a valuable foundation for further interdisciplinary research.
Keywords: Azerbaijan, French literature, Oriental studies, Voltaire, Alexandre Dumas, Joseph Arthur de Gobineau, Baron de Baye, cultural heritage, literary representation, travel literature.

Azərbaycan fransız ədəbıyyatında

Əsgər Məmməd oğlu Zeynalov (filologiya elmləri doktoru, professor)[1]

[1.] Azərbaycan Dillər Universiteti
Baku, Azərbaycan

Xülasə.
Məqalədə Azərbaycanın fransız ədəbiyyatında əks olunması görkəmli şərqşünas və yazıçıların – Barthelemi d'Herbelot, Volter, Aleksandr Düma, Jozef Artur de Qobino və Baron dö Bayın əsərləri əsasında araşdırılır. Onların Azərbaycanın tarixi, mədəniyyəti, ədəbi irsi və ictimai həyatı haqqında təqdim etdikləri məlumatlar təhlil edilir, bu mənbələrin elmi dəyəri və tarixi etibarlılığı qiymətləndirilir. Tədqiqat göstərir ki, fransız ədəbiyyatı və səfər qeydləri Azərbaycanın Avropada tanıdılmasında mühüm rol oynamış, eyni zamanda ölkənin mədəni obrazının formalaşmasına təsir göstərmişdir. Bununla yanaşı, bəzi müəlliflərin əsərlərində rast gəlinən tarixi uyğunsuzluqlar və yanlış təsəvvürlər tənqidi yanaşma ilə qiymətləndirilir. Məqalə belə nəticəyə gəlir ki, fransız ədəbi mənbələri Azərbaycanın tarixi və mədəniyyətinin öyrənilməsi üçün mühüm əhəmiyyət daşıyır və gələcək elmi araşdırmalar üçün zəngin baza yaradır.
Açar sözlər: Azərbaycan, fransız ədəbiyyatı, şərqşünaslıq, Volter, Aleksandr Düma, Jozef Artur de Qobino, Baron dö Bay, mədəni irs, ədəbi təsvir, səyahətnamələr.

Avropada həmişə Şərqə böyük maraq olmuşdu. Rus tədqiqatçısı V. Nikitinin qeyd etdiyi kimi XVIII əsrdə Avropada artıq Şərqşünaslıq elmi mövcud idi.

Şərqin ayrılmaz qolu olan Azərbaycan, eləcə də onun ədəbiyyat və mədəniyyəti Avropa ədəbiyyatında müxtəlif vaxtlarda yazılarda öz əksini tapmışdı.

Bu yazıda Fransız ədəbiyyatında Azərbaycanla bağlı problemlərə münasibət bildirmək istərdik.

Fransız şərqşünası Barthelemi d'Herbelonun 1697 – ci ildə nəşr etdirdiyi "Şərq Kitabxanası" əsərində Azərbaycan şairləri Nizami Gəncəvi, Xaqani Şirvani, Əbül Üla Gəncəvi haqqında məlumat verilir.

XVIII əsrin dahi fransız ədibi Fransua Volter 1756 – cı ildə yazdığı "Millətlərin adətləri və düşüncə tərzi haqqında esse" adlı əsərində Azərbaycanla bağlı çox maraqlı məlumatlar təqdim etmişdir.

Fransız ədibi Astiaq əfsanəsindən bəhs edərkən bəlli olur ki, o, Herodot və Ksenofonun əsərlərinə istinad etmişdir. O, Herodotun qələmə aldığı həmin hadisə barəsində yazır:

"Herodot ehtimal edir ki, Midiya hökmdarı Astiaq öz nəvəsi Sirüsü (Kiri) beşikdə boğmağı əmr edir, çünki o, yuxuda görür ki, qızı Mandananın – Sirüsün (Kirin) anasının yanından bol su axır və bütün Asiyanı tutur." Sonra yazıçı qeyd edir ki, macəranın qalan hissəsi də bu qədər maraqlıdır, bu ciddi şəkildə yazılmış Qarqantuanın əhvalatıdır.

Esselərdə bizim üçün maraq doğuran bir fikrin üstündə xüsusilə dayanmaq lazım gəlir. Volter yazır: "Otuz il müddətində Hirkaninin bütün bu qonşu xalqlarının ərazisini viran qoyan skiflər adlanan Tatarlar doğrudanmı Sibirdən idilər?"

Təbii ki, söhbət skiflərin Midiyanı 28 il (e. ə. 653 – 625) əsarətdə saxlanmasından gedir.

Aparılan tədqiqatlar təsdiq edir ki, skitlər - skiflər – iskitlər - saqlar - saklar həm Qara dəniz sahillərində, həm Sibirdə, həm də indiki Qazaxıstanın ərazilərində yaşamış və bir çox türk xalqlarının xüsusilə yakutların, qazaxların, azərbaycanlıların soy-kökündə iştirak etmişlər.

Əldə olan tarixi faktlar əsaslı surətdə göstərir ki, Skiflər Qafqaza Sibirdən yox, eradan əvvəl Qara dəniz sahillərindən gəlmiş, qeyd olunduğu kimi, Midiyanı 28 il əsarətdə saxlamışlar.

Volter "esse"lərində yazır ki, türklər, tatarlar, skiflər eyni kökə mənsubdurlar. Atillanın da bu kökə mənbubluğunu nəzərə alsaq onda görərik ki, onlar bütün yer üzünü işğal etmişdilər. Onların buna mənəvi haqqları da var idi. Çünki, onlar hamıdan güclü, sərt və qüvvətli idilər.

Volter öz "Esse"lərində Zərdüştün "Avesta"sı haqqında da geniş söhbət açmışdı. Fransız ədibin "Zadiq yaxud tale" povestində tez – tez Zərdüştə müraciət olunur, "Avesta"dan böyük bir hissə fransız dilinə tərcümə olunaraq nəşr edilmişdir.

Elmi ədəbiyyatda həmişə qeyd olunur ki, Ankétil du Perron 1755 – 61 - ci illər arasında akademik V. V. Bartoldun qeyd etdiyi kimi Hindistana fantastik səyahət etmiş və 1771-ci ildə o, "Avesta"nı fransız dilinə tərcümə edərək nəşr etdirmişdi.

Guya bu, "Avesta"nın Avropa ilə ilk tanışlığı idi. Ancaq Volter "Esse"ləri ilə təsdiq edir ki, o, Ankétil du Perronun tərcüməsini təxminən 25 il qabaqlamışdı.

Volterin müraciət etdiyi "Avesta"dan bir neçə nümunə təqdim etmək istərdik.

- Pislik etmək fürsəti, gündə yüz dəfə, yaxşılıq etmək fürsəti ildə bir dəfə düşür.
- Əgər sənə nə isə bəxş olunubsa, Allaha dua et.
- Xəstələnəndə Allahdan səbr, dözüm istə. Xoşbəxt olanda onu yaxşı hərəkətlərlə qaytar.

Volter Zərdüştlüyə aid yazısında o zamana kimi eqoistliklə qəbul olunmuş fikirləri, ehkamları alt – üst etdi:

"Bizim ahil, tez inanmağımız nəticəsində həmişə elə təsəvvür edirdik ki, hər şeyi biz ixtira etmişik və hər şey yəhudilərdən gəlib, nə irsimiz varsa yəhudilərə məxsusdur; ancaq qədim dövrü bir az araşdırdıqda hər şey aydınlaşır"

Zərdüştün kimə, hansı xalqa məxsusluğuna gəlincə İranda görkəmli "Avesta"nın tədqiqatçılarından olan Purdavud Zərdüşt haqqında danışarkən yazmışdı:

"Bütün İran və ərəb müəllifləri, o cümlədən İbn Xordabeh, Balazuri, İbn-əl-Fəqih, Məsudi, Həmzə İsfahani, Yəqub Həmavi, Əbulfəda Zərdüştü azərbaycanlı göstərmiş və xüsusən Urmiyanı onun doğum yeri bilmişlər".

Zərdüştün yeri, məkanı və mənsubiyyəti barədə müxtəlif fikirlər olması bir həqiqətdir. Ancaq bu da bir danılmaz faktdır ki, nə qədər böyük, görkəmli tədqiqatçılar, araşdırıcılar Zərdüştün azərbaycanlı – türk olduğunu dönə - dönə inamla vurğulamışlar.

Məşhur şərqşünas, dünya şöhrətli alim, akademik V.V. Bartold yazırdı: "Azərbaycan İranın həyatında istər müsəlman dövrünə qədər, istərsə də İslamın dövründə tamamilə xüsusi yer tutur. Azərbaycana məxsus Zoroastrın – Zərdüştün həyatı haqqında hekayələr (əhvalatlar – Ə. Z.) mövcuddur.

Azərbaycanın İslama qədərki Baş şəhərində Qanzaqda (indiki Təxti – Süleyman xarabalıqları, Urmiya gölündən cənub tərəfdə) zoriast zərdüştilərin məbədi yerləşib.

Volter "Esse"lərində Ağqoyunlu hökmüdarı Uzun Həsəndən, Səfəvi hökmüdarı Şah İsmayıldan danışır, Nadir şah Əfşarın hakimiyyətə gəlməyini bütün incəlikləri ilə təqdim etmişdir. Ümumiyyətlə Volter səkkiz cilddən ibarət "Millətlərin adətləri, ənənələri və düşüncə tərzi haqqında esse" əsərində Şərq xalqları, o cümlədən ərəblər, hindlilər, farslar, xüsusilə də türklər haqqında, onların tarixi, adət - ənənələri, xarakteri, elmi, mədəniyyəti, ədəbiyyatı haqqında çox maraqlı məlumatlar, faktlar vermişdi.

Ancaq onu da xüsusi vurğulamaq lazımdır ki, fransız ədibin fikirlərini ehkam kimi qəbul etmək olmaz.

Dahi mütəfəkkirin "Esse"lərində bəzi yanlışlıqlara da münasibət bildirib, aşkarlamaq lazım gəlir. Məs.: Volter orta əsr şərq mədəniyyətindən, elmin yüksək dərəcədə inkişaf etməsindən ağızdolusu danışır. Ancaq təəssüflər olsun ki, bu dövrdə şərqin yetirdiyi Əl – Cahiz, Əl – Fərabi, Əl – Biruni, Firdovsi, Ömər Xəyyam, Nizami Gəncəvi kimi dahilərin adlarını heç bir yerdə çəkmir. Yaxud türklərin xilafətdə oynadığı roldan bir kəlmə də olsun danışmır.

Bəllidir ki, böyük fransız yazıçısı Aleksandr Düma 1858-ci ilin noyabr ayında Azərbaycanda olmuşdur. O, Bakıda olarkən görkəmli Azərbaycan şairəsi Xurşid Banu Natavanla görüşmüş ona şahmat bağışlamışdı. Şamaxıda Mahmud ağanın məclisindən, ümumiyyətlə, azərbaycanlıların adət - ənənələrindən səfər təəssüratının nəticəsi olaraq "Qafqaz" əsərini yazmışdı. Əlbəttə, bu barədə çox danışılıb, yazıldığı üçün bu əsərin üzərində çox dayanmağı məsləhət bilmirik.

Dünya ədəbiyyatının ən güclü fantastik yazıçısı Jül Vern də "Kladius Bombarnak" əsərində Bakı ilə bağlı yığcam şəkildə də olsa söhbət açmışdır.

Azərbaycanla bağlı ən maraqlı əsərlərdən biri tanınmış fransız diplomatı, yazıçısı, dramaturqu, şairi Jozef Artur dö Qobinonun "Şamaxı rəqqasəsi" əsəridir. Xüsusi vurğulamaq lazımdır ki, 2015 – ci ildə Fransanın Qrenobl şəhərində Azərbaycanda Fransız dili müəllimlərinin Assosasiyası xətti ilə təkmilləşmə kursunda olarkən təsadüf nəticəsində Qobinonun "Şamaxı rəqqasəsi" əsərini əldə etdim, 80 səhifəlik bu roman haqqında geniş məqalə yazıb "Ədəbiyyat" qəzetinin 03 oktyabr tarixli nömrəsində dərc etdirdim.

Əsərdəki hadisələr Bakı və xüsusən də Şamaxı şəhərində baş verir. Bunlar təxminən 1860 – 1870 – ci illərə təsadüf edir. Əsərdə azərbaycanlı xarakteri, Azərbaycan adət - ənənələri çox aydın, incəlikləri ilə təqdim olunur.

Qafqaza gələn ispan əsilli Jan Morenonu dövlətin tapşırığı ilə gəlib Potidə qarşılayan Assonov – Həsənov vətənpərvər bir gəncdir. O, Sank – Peterburqda təhsil almış və fransız dilini də burda öyrənmişdir. Moreno ondan kim olduğunu soruşduqda O, "Murad Həsənov, mən rusam, daha doğrusu, mən tataram. Şirvan əyalətindənəm, müsəlmanam, sizə xidmət etmək üçün gəlmişəm" – deyir.

Əsərdə Murad Həsənovun Morenoya "Ah, ruslar: Mənim vətənimi işğal edənlər mənim düşmənlərimdir" dediyi sözlər onun əsl azərbaycanlı xarakterini, necə vətənpərvər olduğunu təsdiq edir.

Moreno Həsən bəylə söhbət edə - edə Kutaisidən, Bakıdan keçib nəhayət Şamaxıya gəlib çatırlar. Məşhur Şamaxı rəqqasəsi Um – Ceyhanəyə də sifariş göndərilir ki, sabah qonaq olacaq, başqa bir rəqqasəni də götürüb məclisə gəlsin.

Əsərdən aydın olur ki, əcnəbi qonaqları xalqın mədəniyyəti ilə yaxından tanış edib, yüksək səviyyədə qəbul edilməsi üçün xüsusi, ayrıca məclis yerləri yaradılmışdı. Şəhərin sayılıb seçilən adamları, eləcə də əcnəbi qonaqlar həmin məclis yerinə təşrif buyurar, onlar rəqqasələrin oyunlarına baxıb, musiqini dinləyib, sözün əsl mənasında əylənərdilər.

Qobino Şamaxıda məclisi xüsusi bir zövqlə təsvir edir. Yazıçı göstərir ki, məclisin təşkil olunduğu zal çox səliqəli idi.

Əsərdə göstərilir ki, qonaq bu səliqəli otağa hamıdan tez gətirilmişdi. Şamaxının məşhur adamları Ağa xan və Şəmsəddin bəy məclisə daxil olub qonağı salamladılar. Maraqlıdır ki, yazıçı salamlaşmanı Azərbaycan dilində olduğu kimi saxlamışdır.

- Salam Əleyküm! Xoş gəlmişsiniz (fransız dilində)
- Əleyküm salam!
- Bismillah! Xahiş edirəm əyləşin (fransız dilində)

Əsərin ən maraqlı yerlərindən biri musiqiçilərin məclisə gəlişidir. Qobino yazır ki, burada bizim gitaraya oxşar bir musiqi aləti var ki, onu tar adlandırırlar. Skripkaya oxşar, ancaq qolu olan digər bir alət var ki, bu kamança adlanır. Üçüncü bir alət öz simləri ilə rübab adlanır. Dördüncü alət isə öz rübabları ilə xüsusi qeyd olunmalı və bütün Asiya musiqi alətlərindən fərqlənən tambur idi.

Əlbəttə, əsərdə tar, kamança, rübab, tambur musiqi alətlərinin adlarının Azərbaycan dilində təqdim olunması hər bir azərbaycanlıda iftixar hissi oyadır.

Fransız ədəbiyyatında Azərbaycanla bağlı ən maraqlı əsərlərdən biri görkəmli arxeoloq, yazıçı Baron dö Bayın "Tatar əraziləri" (Dərbənddən Yelizavetpola qədər) yol qeydləri kitabıdır. Baron dö Bay (1853 – 1931) 1900 – cü ildə Dərbənddən Gəncəyə (Yelizavetpola) qədər səyahət etmiş, öz təəssüratlarını qələmə almış və 1901 – ci ildə yuxarıda adı çəkilən kitabı Parisdə nəşr etdirmişdi.

51 səhifədən ibarət bu kitabın üz qabığında yazılmışdı: "Ches Tatars. De Derbent à Elisabethpol. Souvenir d`une mission pr. Le Baron de Baye. Paris. Libraire Nilson, 1901". 1

Baron dö Bay Qafqazı Rusiyanın ürəyi adlandırır və bu ərazidə üç xalqın yaşadığını göstərir. O qeyd edir ki, gürcülər heç bir müqavimət göstərmədən Rusiyanın tərkibinə daxil olmuşdur. Müəllifin fikrincə, xristian amili burada başlıca rol oynamışdır.

Baron də Bay tatarlar – azərbaycanlılar haqqında yazır:

“Lakin bunun əksinə olaraq, müstəqillikləri uğrunda mərdliklə vuruşub, xilas olmaq üçün müstəqil xanlıqlar yaradıb, ancaq İran hökuməti bu işdə onlara heç bir yardım və köməklik etməmişdir.

Tatarların öz ölkələrinin azadlıq və müstəqilliyini müdafiə etmək üçün göstərdiyi bu güclü müqavimət, bu yerləri, bu əraziləri işğal etmək üçün həmişə ruslara böyük maneə olmuş, onların göstərdiyi bu müqavimət rus ordusu tərəfindən qəddarlıqla qarşılanmışdır. Beləliklə rəqib tərəf qalib olmuşdur.

Tarixdən bəlli olduğu kimi, Rus ordusu Car-Balakəndə (1803), Gəncədə (1804), İrəvanda (1804, 1807, 1827) ciddi maneələr, vuruşlarla qarşılaşmışdır.

Ermənilər, ticarətlə məşğul olurlar, onların Rusiyanın işğal etdiyi torpaqlarda məskunlaşmış, ruslara itaət edir və buna görə də təhlükəsiz yaşayırdılar.

Baron də Bayın bu fikri əsaslı surətdə təsdiq edir ki, ermənilər bu ərazilərə Rusiyanın Qafqazı işğal etməsindən sonra göndərilmişdir.

Bay Qarqazda yerli mənbələrə əsaslanaraq göstərir ki, 1900 – cü ildə Qafqazda bir milyon 139 min 639 min nəfər əhali – tatar yaşayırdı. Bu sözlərdən sonra o, Tiflis, İrəvan, Yelizavetpol, Bakı, Dağıstan, Zaqatalada yaşayan azərbaycanlıların sayını təqdim edir.

Bay onu diqqətə çatdırırdı ki, Azərbaycan xanlıqları işğaldan sonra Bakı, Yelizavetpol və İrəvan quberniyalarına bölünmüşdür.

1. Bu əsər ADU – nun Fransız Dili və Mədəniyyəti Mərkəzi əməkdaşları Əsgər Zeynalov, Rafiq Musayev və Gülnarə Babayeva tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir.

Kitab adında qeyd olunduğu kimi, Dərbənddən Yelizavetpola qədər adlandığı üçün öncə Dərbənd haqqında məlumat verilir və bu şəhərdə 12 min tatar – azərbaycanlı, 4 min yəhudi və 500 nəfəri ermənin yaşadığı bildirilir. Bay qeyd edir ki, şəhərdə 14 məscid, bazar və sehrli evlər mövcuddur.

Bay Dərbəndlə bağlı əfsanədən söhbət açr, bu sözün fars dilində “dəmir qapı” mənasını verdiyini söyləyir. Əsərdə göstərilir ki, Dərbənddə ən qədim məscid 1113 – cü ildə inşa edilmiş Cümə məscididir, o, XIX əsrdə bərpa olunmuşdur.

Bayın Dərbənd səfərindən danışarkən iki məsəli xüsusi vurğulamaq lazım gəlir.

Birincisi, əsərdə Dərbəndlə bağlı əfsanə müsəlmanlara məxsus ifadələrlə açılır: “Bu dünya Allahın xeyirxahlığı, böyüklüyü, mərhəməti ilə başlanır. O, bu dünyanın yaradıcısıdır. O, Məhəmmədi yer üzünə peyğəmbər seçmiş, həmçinin onu rəsulu və elçisi təyin etmişdir.” Bu sözlərdən sonra sevgi macərası nəticəsində Dərbənd şəhərinin yaranması ilə bağlı əfsanə başlayır.

İkincisi, Baron dö Bay onu müşaiyyət edən Dərbənd şəhərinin meri Kassin bəy Heydərov haqqında həvəslə danışır, Avropa adət - ənənələrini mənimsəmiş əsl müasir ziyalı kimi təqdim edir, bu cür mühitdə belə adamlara heyranlıqla yanaşır. Əsərdəki təqdimatdan belə nəticəyə gəlmək olar ki, Kassin bəy Heydərov Avropa təhsili almış və fransız dilini yaxşı bilir. Çünki onlar yolda eşitdikləri kövrək bir mahnının mətnini ona tərcümə edir.

Bay əsərində sıx – sıx Azərbaycan tatarları sözlərini işlədir. Dərbənddən sonra bir il əvvəl çəkilmiş Sankt – Peterburq qatarı ilə Bakıya gəlir.

Bay qeyd edir ki, Bakı beynəlmiləl şəhər olsa da, tatarların şəhəridir. Tatarlar öz adət - ənənələrinə həmişə sadiqdirlər.

Fransız arxeoloqu Bakı sözünün mənşəyinə toxunaraq yazır ki, Bakının əsl adı “Badi – Kubə” – küləklər şəhəridir. Bay göstərir ki, şəhərin 115 min əhalisindən 60 min nəfəri tatarlar Bakının aborigen hissəsi sayılır. Onu da ayrıca vurğulayır ki, kəşf edəcəyimiz şəhər bir tatar şəhəridir. Bay Bakı ilə tanış olduqda ona bələdçilik edən şəxs barəsində fikrini belə ifadə edir: “Mənim bəxtim onda gətirdi ki, mən Parisdə yaşamış, Fransanı sevən və bizim dildə yaxşı danışan bir nəfərlə tanış oldum”

Haqqında söhbət gedən tatar ziyalısı, Sorbon universitetində təhsil almış Əhməd bəy Ağayev idi.

Fransız müəllifi əsərdə dönə - dönə hündür qala divarlarına qayıdır və Bakı bağlarından heyranlıqla söhbət açır. O, Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyətini xüsusi dəyərləndirir və onun əldə etdiyi milyonlardan bölgəyə xidmət edən nadir insanlardan adlandırır. Müəllifin fikrincə onun vətəninə verdiyi bu qədər faydaların ən önəmlisi Bakıda müsəlman qızları üçün açdırdığı məktəb idi.

Baron dö Bayın Bakıdan bəhs edərkən, ətraflı surətdə söhbət açdığı yerlərdən biri də Şirvanşahlar sarayıdır. Müəllif Şirvanşahlar sarayından, onun yanındakı tikililərdən, məscidlərdən, onun daş naxışlarla göylərə ucalan minarələrindən, Xan divanından ağız dolusu danışır. Qız Qalası və Suraxanı Atəşgahı da unudulmur.

“İndi isə Bakını tərk edib Gəncəyə keçək” – deyərək Gəncə haqqında ətraflı məlumat vermək istəyir.

Müəllif əsərdə maraqlı və təəccübləndirici bir fikir söyləyir ki, Gəncənin adı Zərdüştün Avestasında çəkilir. Onun bu fikri haradan, hansı qaynaqdan götürməsi təəssüflər olsun ki, göstərilmir.

Ancaq doğurdan da Azərbaycanın Gəncə şəhərinin adı Zərdüştün “Avesta”sında çəkilirsə, bu yalnız qürurvericidir. Şübhəsiz ki, bu fikir yeni tədqiqatlar tələb edir. Bayın kitabında Gəncədəki gur, sürətlə axan çaylar, bağçalar, noyabr ayı olmasına baxmayaraq meyvə ağacları, hələ də yaşıl olan bağlar diqqət çəkən bir tərzdə təsvir edilir.

Baron dö Bayın fikrincə, Gəncədə ziyarət etməyə ən möhtəşəm yer XVII əsrdə I Şah Abbas tərəfindən tikilmiş məsciddir. Kitabda o da əlavə olunur ki, bu məscid böyük dəyərə malikdir və onu ziyarət etməyə dəyər, orada yaşayan və uzaqdan gələn ziyarətçilər, ölüm anında burada dəfn olunmağı arzulayırdılar. Bunun səbəbini müəllif belə açıqlayır: “Bu məscidin içərisində İbrahim peyğəmbərin türbəsi yerləşir. O, Məhəmməd peyğəmbərin nəslindən olduğu üçün müqəddəs şəxsiyyət sayılır.

Baron dö Bay əsərində Nizami Gəncəvinin “İskəndərnamə” poemasından ətraflı bəhs edir, yunanlarla rusların vuruşundan. İskəndərin ordusunun qalib gəlməsindən, Nüşabəni Bərdəyə yenidən hökmdar təyin etməsindən geniş söhbət açır.

“İndi isə Azərbaycan tatarlarından danışaq” – “Onlar türkdürlər” – deyə fikrini açıqlayır. Bay yazır ki, Cənubi Qafqazda ruslar onları Bakı, Yelizavetpol və irəvan Quberniyalarına ayırdılar. Dərbənd onların şimalda məskunlaşdığı sonuncu məkanıdır.

Baron dö Bay azərbaycanlıların adət – ənənələrindən danışarkən qeyd edir ki, elə zənn edirdik tatarlarda qadın həmişə çadra altında olur, guya o diqqət mərkəzində olmamışdır. Ancaq tatarların məşhur şairlərindən Vaqif qadınları yüksək səviyyədə tərənnüm etmişdir. Fransız arxeoloqu fikrini əsaslandırmaq üçün şairin yaradıcılığından nümunələr gətirir: “Sənin mənsub olduğun xalq xoşbəxtdir, onun bağçasında sən qızıl gülsən ... Sən səhərlər günəş qalxanda arının qonduğu güllər kimi gülürsən. Şərq öz hərəkətləri ilə ruhu sakitləşdirən və baxışlarıyla insanı sevindirən bir ceyrandır”.

“Tatar əraziləri. Dərbənddən Yelizavetpola qədər” əsərində müəllif Azərbaycan folkloruna da müraciət etmişdi.

Baron dö Bayın bu xalqın haqqındakı sözləri Azərbaycanda olmuş fransız ədibi Aleksandr Dümanın sözləri ilə üst – üstə düşür: “Tatarların vəd etdiyi hər bir söz müqəddəs bir şeydir. Onların düzlüyü, namusluluğu, ağıllılığı gürcülərin özləri tərəfindən də qəbul edilmişdi”. Bayın əsərindən aydın olur ki, müəllif Dümanın Qafqaz əsərini oxumuş, ondan xəbərdar idi.

Bay Fransada təhsil almış azərbaycanlı haqqında danışarkən yazır ki, Əhməd bəy Ağayev kimi savadlı və yetişmiş bir tatar daha çox fransız ziyalısına oxşayır.

Baron dö Bayın bu fikri üzərində xüsusi dayanıb və münasibət bildirmək lazım gəlir. Müəllif əsərdə bir neçə dəfə qeyd edir ki, tatarlar – türklər guya XI əsrdə Qafqaza gəlmişlər. Bu fikri erməni alimi H. Açaryan da 1905 – ci ildə söyləmişdir

ki, guya türklər ilk dəfə 1021 – ci ildə Zaqafqaziyaya gəlmişlər. Çünki türk dilinin erməni dilinə təsirilə hələ VIII – X əsrlərdə bu dilin qrammatik quruluşunu dəyişdirməsi H. Açaryanı təəccübləndirmişdi. Bu alim təxminən 50 il bu məsələnin üzərində fikirləşsə də onun cavabını tapa bilmədi. Çünki onun beynindəki səhv fikir bu məsələyə aydınlıq gətirməyə imkan vermədi: "Guya türklər Zaqafqaziyaya ilk dəfə 1021 – ci ildə gəlmişlər.

Halbuki Volter yazırdı ki, Skiflər 28 il (e.ə. 653 – 625) Midiyanı işğal altında saxlamışlar.

Professor Mirəli Seyidov apardığı ciddi axtarışlar nəticəsində sübut etdi ki, hələ eradan əvvəl XVI əsrdə Qafqazda Qaşqaylar, IV – V əsərlərdə savirlər, buntürklər, xaylantürklər, hunlar, xəzərlər və digər türk tayfa və qəbilələri yaşamışlar. Yüksək mədəniyyətə malik bu türk qəbilələri ətrafdakı qəbilə - tayfalara güclü təsir göstərmişdi.

Bəli, Bayın "tatarlar XI əsrdən bu əraziyə gəlmişlər" tamamilə yanlış fikri hardan, hansı qaynaqdan götürməsi bəlli deyildi.

Baron dö Bay 1901 – ci ildə Parisdə nəşr etdirdiyi "Tatar ərazilərində" ("Dərbənddən Yelizavetpola qədər") kitabını belə yekunlaşdırır.

"Mən sizi bir Asiya ölkəsinə apardım; vaxtı kifayət qədər nəzərə almadım. Sizin xeyirxah diqqətiniz də mənə vaxtı unutdurmağa səbəb oldu".

Düşüncə haqqında tapmacaların birində tatarlar belə deyirlər:

"Mən bir fransız sandığı əldə etdim, onun özü açılır və özü bağlanır; onun sirrini heç kəs bilmir. Sizin fransız iltifatınız tatar xalqlarının peyda olduğu sandığı açdı, siz oradakı sirri bilirsiniz."

Fransız ədəbiyyatı Azərbaycanla bağlı nümunələrlə zəngindir. Ancaq onları ehkam kimi qəbul etməyib, lazımi, həqiqətə uyğun olmayan yanlışlıqları da üzə çıxarmaq lazmdır.

İnanırıq ki, bu mövzu ilə bağlı yeni – yeni araşdırmalar aparılacaq, sanballı tədqiqat əsərləri işıq üzü görəcəkdir.

References

1. Voltaire. Essai sur les moeurs et l'esprit des nations. tome 1-2. À Paris de l'imprimerie et de la fonderie stéréotypes de Pierre Didot de l'ainé et Firmin Didot. 1817. 498p.
2. Joseph Artour de Qobineau. La danseuse de Şamaka. Paris, Nilson, 1862, 82 p.
3. Chez tatars. De Derbent à Elizavethpol. Paris, Librairie Nilson, 1901. 51 p.
4. Bartelemi D`Erbeleau. La Bibliothèque Orientale. Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin fondu, İnventor. 305. (səh. 655, 991)
5. Əsgər Zeynalov. Fransız ədəbiyyatında Şərq. Bakı, "Elm", 1996, 154 səh.
6. Asgar Zeynalov. The East in Voltaire`s vork. İndia Cinnamon Teal, Publishing, 2017.144 p.
7. Asgar Zeynalov. The Oriental world of Voltaire and Hugo, Sue de Malmö, Truck Holmberqs, 2018, 271 p.
8. Asgar Zeynalov. Two Geniuses, Digital Print Australiya, 2022